# Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Qərarı

**№ 68** **Bakı şəhəri, 24 fevral 2017-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 sentyabr tarixli 338 nömrəli qərarı ilə təsdiq edilmiş "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nda dəyişikliklər edilməsi barədə**

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2016-cı il 30 sentyabr tarixli 319-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 noyabr tarixli 2444 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 1 sentyabr tarixli 338 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 9, maddə 1566; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 7 fevral tarixli 34 nömrəli qərarı) ilə təsdiq edilmiş "İctimai əhəmiyyətli funksiyaları yerinə yetirən hüquqi şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 7-1-ci hissə əlavə edilsin:

"7-1. Qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslər.".

**2.** 13-cü hissəyə "qeyri-dövlət (özəl) sosial fondlarından," sözlərindən sonra "qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərdən," sözləri əlavə edilsin.

***Artur RASİ-ZADƏ***
***Azərbaycan Respublikasının Baş naziri***